BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Humanitar elmlər seriyası 2013*

**UOT 327; 339,9**

# AZƏRBAYCAN MƏTBUATINDA TÜRKÇÜLÜYÜN TƏBLİĞİ (1918-1920-ci illər)

**Z.A.MİRZƏYEVA**
***Bakı Dövlət Universiteti***
***emirati01@mail.ru***

*Sovet dövründə qardaş Türkiyə düşmən bir ölkə kimi təbliğ edilib. 1990-cı ildən üzü bəri müstəqilliyimizi yenidən bərpa etdikdən sonra, hər sahədə olduğu kimi mətbuatla da bağlı qaranlıqlara işıq salındı. Azərbaycan mətbuatının tədqiqatçıları 1918-1920-ci illər baş verən siyasi-ictimai, ədəbi-mədəni hadisələri tədqiqata cəlb etdilər. Məlum oldu ki, bu dövrdə Azərbaycanda mətbuatın, maarifin, mədəniyyətin inkişafında qardaş Türkiyənin çox böyük rolu olub. Azərbaycanın tanınmış jurnalistləri, publisistləri Türkiyənin tanınmış qələm əhli ilə müntəzəm olaraq əlaqələr yaradıb və birgə mübarizə aparıblar.*

***Açar sözlər:*** türkiyəli yazarlar, türkçülük ideologiyası, əks-təbliğat, müasir tədqiqatlar, dövrü mətbuat, ədəbi əlaqələr

Yola saldığımız XX əsrin əvvəlləri də, sonu da Azərbaycanda, onun ətrafında və bütövlükdə dünyada gedən siyasi proseslərin mürəkkəbliyi ilə xarakterizə olunur. İctimai şüurda gedən keyfiyyət dəyişmələri siyasi münasibətlərin və siyasi təşkilatların keyfiyyətcə dəyişməsini tələb edirdi. Bu proses XX əsrin əvvəllərində müstəmləkə zülmü altına düşmüş xalqların həyatında və milli şüurunda oyanışa səbəb oldu. Bu oyanışdan Azərbaycan ziyalıları da bəhrələnmək üçün xalqın azadlığı uğrunda mübarizəyə qalxdılar. Bu mübarizə daha çox mətbuatda, ideoloji sahədə özünü büruzə verdi. Çünki bu dövrdə Azərbaycan ziyalıları jurnalistikanın köməyi ilə romantik maarifçilikdən realist maarifçilik səviyyəsinə yüksəldi. Cəmiyyətdə siyasi maariflənmə prosesinin başlanması, demokratik ideyaların yayılması ən çox bu dövr mətbuatının fəaliyyəti ilə bağlıdır.

Beləliklə, uzun illərin gərgin siyasi, ədəbi mübarizəsinin nəticəsi olaraq XX əsrin ikinci onilliyində 1918-ci il may ayının 28-də Azərbaycan istiqlaliyyəti elan oldu. Bu Azərbaycan xalqının tarixində və taleyində mühüm əhəmiyyət kəsb edən hadisə idi. Lakin ölkədəki ağır siyasi-iqtisadi vəziyyət demokratik respublikanı çətin problemlərlə üz-üzə qoydu. Gənc Azərbaycan dövləti bir tərəfdən beynəlxalq dəstək qazanmaq, dünya dövlətləri tərəfindən

tanınmaq, ölkənin siyasi müstəqilliyini möhkəmləndirmək, ərazi bütövlüyünü qorumaq, digər tərəfdən isə ölkədə iqtisadi-mədəni inkişaf proqramını həyata keçirmək üçün gərgin fəaliyyət göstərirdi. Rusiya imperiyası başda olmaqla digər ölkələrin də Azərbaycana, onun gənc demokratik dövlətinə münasibəti o qədər də yaxşı deyildı. Demokratik Respublika iqtisadi çətinliklərlə və mürəkkəb beynəlxalq vəziyyətlə üzləşdiyi bir zamanda Azərbaycanı ilk tanıyan və ona hər bir siyasi-iqtisadi, hərbi sahədə yardım edən Türkiyə Respublikası oldu.

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müasir dövrdə mədəni-iqtisadi, siyasi əlaqələrimizin mövcudluğu bu sahədə varisliyin təcəssümüdür. Türkiyə Azərbaycan respublikaları arasında bu əlaqələr daha da güclənməlidir. Xüsusilə əsası 1918-ci ildən qoyulmuş mədəni əlaqələr, o cümlədən geniş təbliğata malik olan KİV arasındakı münasibətlər daha da genişləndirilməlidir. Çünki "Azərbaycan Xalq Cümhuriyyəti dövrünün jurnalistikası özünün inkişaf meylləri və tipoloji xüsusiyyətlərinə görə mühüm mərhələ təşkil edir. 1918-1920-ci illər jurnalistikamızın inkişafı üçün səciyyəvi olan bütün xüsusiyyətləri, demək olar ki, özündə əks etdirir. Həmin mərhələdə ölkəmizdə mətbuatın inkişafına dəstək olan qüvvələrdən biri də türkiyəli ziyalılar idi" [4, 43].

Ulularımız çox yaxşı deyiblər ki: "İndinin kökü keçmişdədir və keçmiş gələcəyin iynəsidir". Bu "tarixi keçmişimizi, kökümüzü dəqiq və dürüst öyrənməyin ən mötəbər mənbələrindən biri-zamanın kollektiv yaddaşı hesab edilən mətbuatdır" [3, 23] söyləyən prof. Şirməmməd Hüseynov çox haqlı olaraq onları "əvəzsiz mənbə" adlandırır.

Gənc tədqiqatçı alim Q.Dünyamin qızı "Mətbuat tariximizdən" adlı məqaləsində bu haqda fikirlərini belə qeyd edir: "1918-1920-ci illər Azərbaycan ictimai-siyasi həyatında çox şərəfli və eyni zamanda da təlatümlü bir dövrdür. Bu dövrdə Azərbaycan milli mətbuatı öz səhifələrində əsasən türkçülük ideyalarını təbliğ etməklə oxucularının qəlbinə yol tapdı" [9, 4].

1918-1920-ci illərdə Türkiyə-Azərbaycan münasibətlərinin daha da yaxşı inkişaf etməsində hər iki qardaş olkənin yaradıcı ziyalıları və onların idarə etdiyi mətbuat orqanları çox mühüm rol oynadı. Bu gün çoxillik mətbu irsimizin ən şərəfli dövrünü əks etdirən, 1918-1920-ci illər fəaliyyətdə olan, milli ruhlu mətbu orqanlarını zəngin, qiymətli və əvəzsiz mənbə saymaq olar. Ümid edirik ki, tarixçilərimiz, xüsusilə də mətbuat tarixi ilə məşğul olan tədqiqatçı alimlərimiz bu qaranlıq səhifələrin açılmasında və ictimayyətə catdırılmasında öz xeyirxah missiyalarını davam etdirəcəklər. Tariximizin az öyrənilmiş 1918-1920-ci illər Türkiyə-Azərbaycan münasibətləri bu gün daha ətraflı öyrənilməli və tədqiq edilməlidir. Çünki tarixdə olduğu kimi, bu gün də qardaş Türkiyə hökuməti və xalqı Azərbaycan dövlətinin müstəqilliyini və suverenliyini dəstəkləyərək hər an ona qayğı göstərir. Bununla da Mustafa Kamal Atatürkün "Türk gənclərinə" müraciətində söylədiyi: "Türkün dostu türk özüdür" kimi müqəddəs kalamına sadiqliyini bildirir.

Bildiyimiz kimi, XX əsrin əvvəllərində türkçülük-turançılıq ideyalarının geniş təbliğində milli mətbuatımız önəmli rol oynamışdır. Bu ideologiyanın türk xalqları arasında təbliğ edilməsi üçün Azərbaycan Xalq Cümhuriyyətinin liderləri 1918-1920-ci illər ərzində ölkəmizdə bir çox islahatlar həyata kecirmişlər. Hökumət Bakıda ilk olaraq "Türk ocağı" adlı cəmiyyət təşkil edir [4, 134]. Onu da qeyd edək ki, bu ocaq ilk olaraq 1911-ci ildə İstanbulda yaradılır (Bu zaman İstanbulda yaşayan Ə.Hüseynzadə, Ə.Ağaoğlu və M.Ə.Rəsulzadə də "Türk ocağı"nda çalışmışlar). Bakıda da eyni adlı xeyriyyə cəmiyyəti 1918-ci il sentyabrın 24-də yaradıldı. Cəmiyyət öz fəaliyyətində əsasən maaarifin, mədəniyyətin, ədəbi mühitin təbliğinə yer verirdi (heç də təsadüfü deyil ki, 1919-cu ildə Azərbaycanda "Yaşıl qələm" ədəbi birliyi yaradılarkən "Ədəbi yurd", Ədəbi gecə", "Müsəlman ədibləri dərnəyi", "Nicat" cəmiyyətləri ilə yanaşı "Türk ocağı" cəmiyyəti də ona birləşmiş və birgə fəaliyyət göstərmişlər). Cəmiyyətin təşkil edilməsində dövrün tanınmış yazarlarından Abdulla Şaiq, Əhməd Cavad və Tağı Nağızadə ilə birlikdə türkiyəli yazarlardan Məmməd Əmin Yurdaqulu, Əhməd Kamal yaxından iştirak etmişlər. Dövrü mətbuat bu ocağın məqsəd və məramını öz səhifələrində geniş işıqlandıraraq alqışlayırdı. "İstiqlal", "Bəsirət", "İttihad", "Kaspi", "Azərbaycan" qəzetlərində cəmiyyətin məqsəd və məramını əks etdirən məqalələr, xəbərlər çap olunurdu. "Azərbaycan" qəzeti 1918-ci il 6 noyabr tarixli 32-ci sayında bu haqda ətraflı məlumat verirdi. Türk ədibi Rövşən Əşrəf bəyin 1918-ci ildə Bakıya gəlməsi münasibətilə şair Ə.Cavadın "Rövşən Əşrəf bəy" adlı məqaləsində Türk-Azəri ədəbi əlaqələrini daha da inkişaf etdirmək zərurətindən bəhs olunur: "Osmanlı türkünü tanımaq bizə bir ehtiyacdır. Yazıq ki, onlar kəndini bizə tanıtmaq üçün pək ağır davranırlar və bizi tanımaq üçün gec hərəkət ediyorlar" [7, 4].

Çox qısa bir vaxtda ocaq öz fəaliyyəti ilə cəmiyyətin diqqətini cəlb etdi. Belə ki, Azərbaycanda türk xalqlarının milli ruhda tərbiyyəsinə, elmi, ictimai və mədəni tərəqqisinə nail olmaq məqsədilə bir çox xeyriyyə işləri həyata keçirmişdir. Əsasən milli ruhlu və milli ideyaların təbliği üçün həyata keçirilən bu xeyriyyə tədbirləri "Türk gəncliyi" adlanırdı. Burada türk xalqlarının musiqisinə, ədəbiyyatına, mədəniyyətinə, adət-ənənəsinə geniş yer verilirdi. "Azərbaycanın müstəqilliyi", "Azərbaycan-Türkiyə qardaşlığı", "Milli birlik", "Türk qadınının vəfası", "Turan dünyası" və s. mövzuda tamaşalar, "Türkün birliyi", "Atəşgah", "Şərq salonları" kimi sərgilər nümayiş etdirilirdi. Azərbaycan hökumətinin üzvləri, tanınmış jurnalistlər, publisistlər və digər siyasi xadimləri həmin tədbirlərin həyata keçirilməsində yaxından kömək etməklə yanaşı, həm də daimi iştirakçıları idilər. Ona görə də, bu tədbirlərin həyata keçirilməsində və təbliğində o dövrün milli ruhlu mətbuatı aparıcı rol oynayırdı. Bu məqsədlə mətbuatda "Türk dünyası", "Türk şərqiləri", "Türk duyğuları", "Türkün dərdi" kimi rublikalar daimi olaraq fəaliyyət göstərirdi.

Yuxarıda da qeyd etdik ki, bu mətbu orqanları arasında "Azərbaycan" qəzeti daha çox fərqlənirdi. Qəzetdə "Türk əsgəri" adlı ayrıca guşə var idi ki,

burada türk əsgərinin döyüş rəşadətindən, vətənpərvərliyindən, cəngavərliyindən bəhs edən poetiq duyğular intensiv şəkildə verilirdi. Əhməd Cavadın "Qardaş", Abdulla Şaiqin "Vətənin yanıq səsi", Gəncəli Davudun "Əsgər şeirləri", "Azərbaycan ordusu", "Bir əsgərin dilindən", Ümid Gəncəlinin "Azərbaycan vətən şərqisi", Əli Yusifin "Əsgər qardaşlarıma", "Əsgər anasına", Ümgülsüm Seyidzadənin "Bir mayis günündə" əsərlərində milli istiqlalın qorunub saxlanmasında türk qardaşlarımızın xeyirxahlığı vəsf edilirdi.

1919-cu ildə Gəncədə fəaliyyətə başlayan "Türk mütəllimlər cəmiyyəti"nin orqanı olan "Əfkari-mütəllimin" jurnalında türkiyəli yazarların da imzaları ilə rastlaşdıq. Onlar gənc respublikanın ideyalarını hər sahədə dəstəklədiklərini və onlara yardımcı olmalarını dönə-dönə məqalə və yazılarında qeyd edirdilər.

1919-cu ildə Bakıda yayımlanan "Tamaşa" adlı qəzet də oxucuların sevimli mətbu orqanlarından biri idi. Lakin bu qəzet Bakıda deyil, Türkiyədə çap olunaraq gətirilirdi (Azərbaycanlı müəlliflərin yazıları burada hazırlanaraq çap üçün oraya aparılırdı). Qəzetin əməkdaşları həm Türkiyədə, həm də Azərbaycanda tanınmış jurnalistlər və publisistlər idi. "Tamaşa" qəzeti həmin dövrdə çap olunan mətbuat orqanlarından fərqli olaraq heç bir siyasi ideologiyanı dəstəkləmirdi. Yalnız Türkiyə və Azərbaycan musiqisindən, ədəbiyyatından, teatrının inkişafından bəhs olunan yazılar verirdi. Burada teatr tamaşaları haqqında yazılan resenziyalar üstünlük təşkil edirdi.

Bu zaman ölkəmizdə də Türkiyədən gəlmiş bir neçə jurnalist, publisist, şair və ədib müxtəlif mətbuat orqanlarında, cəmiyyətlərdə çalışırdılar. Onlardan dövrü mətbuatda daha çox Ürfan Qaraosmanın, Əhməd Kamalın, Əli Kamilin, Məmməd Əmin Yurdaqulunun, Tofiq Fikrətin, Rövşən Əhmədin imzaları ilə rastlaşırdıq. Onların dəsdəyi ilə mətbuatda türk mədəni inteqrasiyasının təşkili məqsədilə keçirilən tədbirlər, xeyriyyə gecələri bu işin inkişafına daha da təkan verirdi.

Onu da qeyd edək ki, o zaman Azərbaycan teatr səhnəsinin də zənginləşməsində türkiyəli yazarların rolu olmuşdur. Bu haqda məlumat almaq üçün yenə "Azərbaycan" qəzetinə diqqət yetirək. Qəzet yazırdı: "Səhnəmiz teatro əsərlərindən xeyli kasıb və yoxsul olduğunu nəzərə almaqla, yazıb möhtərəm cəmaətdən və səhnə həvəskarlarından xahiş edirik ki, hər kəsdə Türkiyə yazıçlarının əsəri və İstanbul təbii teatro kitabı varsa, tamaşaya qoymaq üçün aşağıdakı ünvan ilə müdriyyətimizə təşrif gətirib şərti məlum etməklə səhnəmizə müavinət bulunsun" [6, 3].

Qəzetin bu müraciətindən sonra 1918-ci il oktyabrın 26-da "Hacıbəyli qardaşları" truppasının ilk tamaşalarından biri türkiyəli yazar Şəmsəddinbəy Saminin "Kaveyi-ahəngər" əsəri oldu. Tamaşanın uğurlu taleyi haqqında dövrü mətbuatda maraqlı resenziyalar çap edilmişdir.

1919-cu il avqustun 22-də "Türk aktyorlar ittifaqı" ilə "Hacıbəyli qardaşları" müdriyyətinin birgə iclası keçirildi. İclasda Azərbaycanda səhnə problemləri müzakirə edilmiş, sənətçilər yetişdirmək məqsədilə dörd şöbədən

ibarət "Bədaye kurs" təsis edilməsi qərara alınmış və Türkiyədən kursda dərs demək üçün müəllimlər dəvət edilmişdir" [8, 3]. Əslində Türkiyədən dəvət edilmiş müəllimlər yalnız bu kurslarda deyil müxtəlif məktəblərdə də tədrisin inkişafı üçün əllərindən gələni əsirgəməmişlər.

Yarandığı gündən cəmi 3 ay sonra gənc respublika hökuməti daxili iqtisadi-siyasi vəziyyətin çətinlikləri sahəsində yoxsul büdcə hesabına tədris müəssələrinin maadi-texniki bazasını möhkəmləndirmək üçün xeyli vəsait ayırmışdır. 1918-ci il avqustun 28-də hökumətin və Parlamentin milli təhsil konsepsiyasını həyata keçirmək üçün Türkiyəyə nümayəndə göndərildi və oradan respublikamızın tədris müəssisələrində dərs demək üçün 50-yə qədər müəllim dəvət edildi. Bu dəvətdən az sonra onlar məktəblərimizdə fəaliyyətə başladılar və bunun böyük əhəmiyyəti haqqında dövrün tanınmış publisistlərindən Üzeyir Hacıbəylinin, Hacı İbrahim Qasımovun, Mirzə Bala Məhəmmədzadənin, Səməd Mənsurun, Əliabbas Müznibin məqalələrində ətraflı məlumat verilirdi.

Müəllimlərin ölkəmizə dəvət edilməsi ilə yanaşı gənc respublika qardaş ölkəyə 100-ə yaxın müxtəlif ixtisaslara yiyələnmək üçün tələbə göndərməyi qərara alır. Bu haqda M.Ə.Rəsulzadə yazırdı: "Azərbaycan gəncliyini elm və texnika əsrinə hazırlamaq üçün 100-ə yaxın tələbənin müxtəlif texniki sahələrdə təhsil alması üçün İstanbula yollanması qərara alınmışdır" [5, 43].

Arxiv materialları və dövrü mətbuatla tanışlıq bir daha əmin edir ki, o zaman Türkiyənin Azərbaycana hər sahədə yardımı və qayğısı olub. İstər ölkəmizdə mətbuatın, istərsə də ədəbi-mədəni mühitin inkişafında türkiyəli ziyalıların əməyi hər an hiss olunur. Bütün bunlarla yanaşı 1918-1920-ci illərdə Azərbaycan xalqının tale yüklü məsələlərində də Türkiyənin qayğısı və sayğısı daha önəmli olub. 1918-ci ildə Bakının qurtuluşu, milli ordunun yaranması, dövlətin beynəlxalq aləmdə tanınması kimi ağır və çətin məsələlərin həlli üçün xalqımız bu gün də Türkiyənin xeyirxahlığını unutmayıb. Millətin, demokratik dövlətin taleyi həll olunan bir vaxtda qardaş Türkiyə Silahlı Qüvvələri Azərbaycana xilaskar əlini uzatdı. Bu ordu Azərbaycana "1918-ci ilin iyunun 4-də "Osmanlı imperatorluğu hökuməti ilə Azərbaycan Respublikası arasındakı dostluq müqaviləsi"nin [2, 50] imzalanması prosesindən sonra gəldi.

Azərbaycana hərbi sursatla gələn ordu haqqında o zaman Hüseyn Baykara "Türkiyənin Azərbaycana hərbi yardımı" adlı məqaləsində bu yardımın "110 zabit, 2763 əsgər, 668 heyvan, 2092 tüfəng, 16 dəzgahlı pulemyot, 4 güclü dağ topu"ndan ibarət olmasını bəyan edirdi [1, 145].

1918-ci ilin 15 sentyabr günü Bakının qurtuluşu kimi tarixə düşdü. Azərbaycanda çap olunan milli-ruhlu mətbuat bu şad xəbəri çox böyük sevinclə qarşıladı və öz səhifələrində bəyan etdi. "Azərbaycan", "İstiqlal", "Bəsirət" qəzetləri bu münasibətlə xüsusi nömrələr buraxdılar. Həmin xüsusi buraxılışlarda Türkiyə əsgərlərinin, zabitlərinin rəşadətli döyüş qabiliyyətlərini vəsf edən onlarla məqalələr, şeirlər, poemalar çap olundu. Ə.Cavadın, H.Cavidin, Ümmugülsüm xanımın, C.Cabbarlının, M.Hadinin, A.Şaiqin, A.Səhhətin

şeirləri, M.Ə.Rəsulzadənin, M.B.Məhəmmədzadənin, Ü.Hacıbəylinin, C.Hacıbəylinin, F.Ağazadənin, Ş.Əfəndizadənin publisistik məqalələrində bu böyük şadyanalıq üçün iftixarla Türk ordusuna xalq adından minnətdarlıq edirdilər. Dövrün tanınmış publisisti Üzeyir Hacıbəyli "Azərbaycan" qəzetində yazırdı: "Qədir bilən Azərbaycan xalqı türk silahlı qüvvələrinin öz doğma qardaşları ilə birgə Bakını azad etmək uğrunda göstərdiyi qəhrəmanlığı heç bir zaman yaddan çıxarmayacaq" [6, 4].

Deməli hər sahədə olduğu kimi ordu quruculuğunda da Türkiyə o zaman Osmanlı dövləti Azərbaycandan yardımını əsirgəmədi. Ölkədə milli nizami ordu yaratmaq, ordunu milli zabit kadrları ilə təmin etmək üçün hərbi təhsil müəssələrinin yaradılması məqsədilə 1918-ci ilin iyun ayında Gəncədə hərbi məktəb yaradıldı. Burada hərbi kadırların hazırlanması üçün Azərbaycana türk zabitləri dəvət olundu.

Azərbaycan Demokratik Respublikasının ordu quruculuğu siyasətində milli hiss, milli birlik, milli iftixar, vətənə, torpağa, bağlılıq duyumu əsas prinsiplərdən biri idi ki, dövrü mətbuat da bunu geniş şəkildə təbliğ edirdi.

Unutmayaq ki, bir əsrdən çoxdur ki, Azərbaycanın uzaqgörən, dünyagörüşlü qələm və kalam sahibləri, xalqımızın ictimai-siyasi hadisələrinin tarixi haqqında çox dəyərli fikirlər söyləmiş, məsləhətlər vermişlər. Azərbaycan xalqı isə uzun illər bu mənəvi xəzinədən xəbərsiz qalmışdır. Çünki sovet dövründə qanı-qanımızdan, canı-canımızdan olan Türkiyə dövləti bizə düşmən kimi təbliğ edilmişdir. Nəticədə xalq uzun illər öz dostunu-düşmənini tanımamış və soy-kökündən, kecmişindən, dünənindən uzaq düşmüşdür. Burada yenə də Azərbaycan mətbuatının görkəmli tədqiqatçısı prof. Ş.Hüseynovun sözlərini xatırlatmaq yerinə düşərdi. O, yazır ki: "Düşmənini tanımayan, öz torpağını və ulusunu qorumağa hazırlaşmayan ölkə məhvə məhkumdur" [3, 103]. Bu aksiomadır. Bu fəlakətdən xalqımızı qurtarmaq üçün tariximizi, kecmişimizi, dostumuzu və düşmənimizi tanımağın vaxtı catıb. Gənc nəsil bundan mütləq hali olmalıdır. Bunun üçün mütəmadi olaraq Azərbaycan və Türkiyə mətbuatı tarixinin tədqiqatçıları elmi əsərlər, məqalələr yazaraq ictimaiyyəti bilgiləndirməlidirlər.

**ƏDƏBİYYAT**

1. Baykara Hüseyn. Azərbaycan İstiqlal Mübarizəsi Tarixi. Bakı: Azərnəşr, 1992, 276 s.
2. Əhmədov Hikmət. Azərbaycan demokratik Respublikası Hökumətinin milli ziyalı kadrlarının hazırlanması sahəsində fəaliyyəti (1918-1920-ci illər). Bakı: Elm və təhsil, 2010, 166 s.
3. Hüseynov Şirməmməd. Milli haqq və ədalət axtarışında. Bakı: Adiloğlu, 2004, 418 s.
4. Quliyeva Qərənfil. Cümhuriyyət dövründə Azərbaycan mətbuatı (1918-1920-ci illər) Bakı: Elm, 2011, 216 s.
5. Rəsulzadə Məhəmməd Əmin. Azərbaycan Cümhuriyyəti. Bakı: Elm, 1990, 111 s.

**Qəzetlər**

6. "Azərbaycan" qəzeti, 1918, 5 oktyabr

7. “Azərbaycan” qəzeti, 1918, 6 noyabr
8. “Azərbaycan” qəzeti, 1919, 3 sentyabr
9. “Azərbaycan” qəzeti, 1998, 29 mart


## ПРОПАГАНДА ТЮРКИЗМА В ПЕЧАТИ АЗЕРБАЙДЖАНА (1918-1920гг.)


**З.А.МИРЗОЕВА**


**РЕЗЮМЕ**


В советский период братская Турция преподносилась нам как враждебная страна. Начиная с 90-х годов XX века, с восстановлением независимости также как и в других областях пролился свет на законы о печати. Исследователи печати Азербайджана смогли привлечь к анализу политические, общественные, культурные и литературные события, происходившие в 1918-1920гг. Стало ясно, что в этот период в развитии печати, культуры, просвещения Азербайджана братская Турция сыграла большую роль. Известные журналисты и публицисты Азербайджана налаживали творческие связи с видными деятелями печати Турции и вели совместную борьбу.



**Ключевые слова:** публицисты Турции, идеология тюркизма, контрпропаганда, современные исследования, периодическая печать, литературные связи


## PROPAGANDATION OF TURKISH IN THE AZERBAIJANİ PRESS (1918-1920 y.)


**Z.A.MIRZAYEVA**


**SUMMARY**


During the Soviet Union our beloved neighbour Turkey was presented to us an enemy country. Since 1990, after regaining our independence some problems of press were lightened again. The investigators of Azerbaijani press began to investigate political and public, literary and cultural problems of the events of 1918-1920. It appeared that Turkey had prominent roles in the development of press, enlightenment and culture in Azerbaijan those years. The famous Azerbaijani journalists, publicists created new links with Turkish writers and poets and always struggled together for their aims.



**Key words:** Turkish writers, Turkish ideology, contrary, propagate, in contemporary investigations, periodical, literary links